Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;

# Bütün dini konfessiyalarımız vahid dövlətçilik mövqeyində - Roma görüşü...

**Ölkəmiz bütün dünyada multikulturalizm və tolerantlıq məkanı olaraq tanınır. Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və burada tarixən müxtəlif dini icmalar sülh və qarşılıqlı hörmət şəraitində yaşayıb. Ölkədə formalaşmış tolerantlıq mühiti həm dövlət siyasətində, həm də cəmiyyətin gündəlik həyatında özünü göstərir. Məlumdur ki, Azərbaycanda əsas din İslamdır və əhalinin böyük əksəriyyəti müsəlmandır. Ölkəmizdə həm şiə, həm də sünni icmaları mövcuddur.**



Bununla yanaşı, ölkədə digər dini konfessiyaların nümayəndələri də fəaliyyət göstərir ki, bunlar pravoslav xristianlar, katoliklər protestant icmaları, yəhudilər (dağ yəhudiləri, aşkenazilər və gürcü yəhudiləri), udin xristian icması, Bəhai icması və digər kiçik dini qruplardır.

Dövlət tərəfindən dini etiqad azadlığı Konstitusiya ilə təmin edilir. Dini icmalar rəsmi qeydiyyatdan keçir, ibadət yerləri fəaliyyət göstərir, məscidlər, kilsələr və sinaqoqlar bərpa olunur və qorunur. Quba rayonundakı Qırmızı Qəsəbə dünyada İsraildən kənarda yəhudilərin kompakt yaşadığı nadir məkanlardan biri kimi tanınır.

Bir sözlə, Azərbaycanın bütün dini konfessiya nümayəndələri arasında qarşılıqlı hörmət və birgəyaşayış ənənəsi mövcuddur və bu, ölkənin ictimai-siyasi sabitliyinin mühüm amillərindən biri hesab olunur. Azərbaycan modeli adlandırılan tolerantlıq siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

Dini və milli müxtəlifliyə hörmət

Multikultural dəyərlərin təşviqi

Dinlərarası dialoqun dəstəklənməsi

Radikalizm və ayrı-seçkiliyin qarşısının alınması.

Bu gün Azərbaycandakı dini icmalar dostluq, əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər. Bakıda mütəmadi olaraq beynəlxalq multikulturalizm və dinlərarası dialoq forumları keçirilir. Eyni zamanda da Azərbaycanın dini icmaları ilə dünyanın müxtəlif dini icmaları, qurumları arasında səmimi əlaqələr var. Azərbaycan və Vatikan arasında mövcud əlaqələr inkişaf edir.

Bu günlərdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycandakı dini konfessiya nümayəndə Vatikanda bir sıra görüşlərdə iştirak edib.

Nümayəndə heyəti əvvəlcə Roma Papası XIV Leo ilə görüşüb.

Papa XIV Leo Azərbaycandakı dini konfessiyaların birgə səfərini sülh və insan qardaşlığı nümunəsi kimi dəyərləndirib.

A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın salamlarını çatdırıb, Azərbaycan-Vatikan əlaqələrinin yüksək səviyyəsini vurğulayıb. O, həmçinin mərhum Papa Fransiskin Azərbaycana səfərini və dini konfessiyaların rəhbərləri ilə görüşünü xatırladıb, bu görüşün də çox əlamətdar olduğunu bildirib. Qeyd edib ki, dövlət səfərləri və dini ictimaiyyət nümayəndələri ilə görüşlər Azərbaycanla Müqəddəs Taxt-Tac arasında münasibətləri və dinlərarası dialoqu gücləndirir. QMİ sədri Vatikanda nümayəndəliyin təsis olunmasının bu prosesə töhfə verəcəyini bildirib.

Şeyxülislam Bakıda inşa olunan ikinci katolik kilsəsinin açılışında Papa XIV Leonun da iştirakını arzulayıb. Həmçinin 2027-ci ildə Azərbaycan-Vatikan diplomatik münasibətlərinin 35 illiyi və Heydər Əliyev ilə Papa II İohann Pavelin ilk görüşünün 30 illiyi münasibətilə Roma Papasını ölkəyə dəvət edib. Bununla əlaqədar QMİ sədri Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurası adından dəvət məktubunu XIV Leoya təqdim edib.

Görüş zamanı Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Yepiskop Vladimir Fekete Azərbaycandakı dinlərarası münasibətlərin yüksək səviyyəsindən, Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev etnik-dini harmoniya mühitindən, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili alban-udi irsinin qorunmasından, Sefarad yəhudiləri Bakı icmasının rəhbəri Zamir İsayev isə tolerantlıq mühitindən danışıb. Azərbaycan dinlərinin tarixi, dini abidələri və tolerantlıq mühiti barədə nəşrlər Papa XIV Leoya hədiyyə edilib.

Nümayəndə heyəti, həmçinin Vatikanın dövlət katibi Kardinal Pyetro Parolin və Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti ilə də görüşüb.

Şeyxülislam A.Paşazadə Heydər Əliyev Fondunun Vatikandakı katakombaların bərpası, muzey və kitabxana əməkdaşlığı, həmçinin Bakıda yeni katolik kilsəsinin tikintisinin multikultural siyasətin nümunəsi olduğunu vurğulayıb. Dinlərarası dialoqun vacibliyi, Azərbaycan-Ermənistan sülh prosesinin əhəmiyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Şeyxülislam A.Paşazadə Azərbaycanın sivilizasiyalararası dialoq və dinlərarası əməkdaşlıq prosesində fəal iştirakını, həmçinin Vatikanda martın 9-da keçiriləcək İftar mərasimində Roma Papasının müraciətinin əhəmiyyətini qeyd edib. QMİ sədri, həmçinin işğaldan azad olunmuş ərazilərdə dini və mədəni irsin bərpası, məscid, kilsə və məbədlərin yenidən inşası barədə məlumat verib.

Dini konfensiyaların Vatikana birgə səfəri onların daim bir-biri ilə sıx əlaqədə olmasının və Azərbaycanın dini konfesiyalarının ölkədəki yüksək tolerantlıq mühitində sülh şəraitində yaşadıqlarının göstəricilərindən biridir.

Onu da qeyd edək ki, QMİ sədri Şeyxülislam A. Paşazadə Roma Papası XIV Leonu Azərbaycana dəvət edib. Bu təşəbbüs, Vatikanla dinlərarası dialoq, multikulturalizm və işğaldan azad olunmuş ərazilərdəki dini irsin bərpası məqsədi daşıyır.

Roma Papası və Azərbaycan münasibətlərinə gəlincə, Roma Papası XIV Leo və Müqəddəs Taxt-Tac rəsmiləri (Kardinal Pyetro Parolin, Klaudio Qucerotti) ilə görüşlərdə Azərbaycanın dinlərarası dialoqa töhfəsi yüksək qiymətləndirilib. Ölkəmizdəki dini Konfesiyalar-Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi Yepiskop Vladimir Fekete, Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev və Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili ölkədəki multikultural mühiti dəstəkləyirlər.

Heydər Əliyev Fondu Vatikandakı katakombaların bərpasına dəstək verib, Bakıda isə yeni katolik kilsəsinin tikintisi həyata keçirilib.

Roma Papası Fransisk daha əvvəl Azərbaycanda dini azadlıqların tam təmin edildiyini vurğulayıb.

QMİ sədrinin rəhbərliyi ilə ölkəmizdəki dini konfensiya rəhbərlərinin birlikdə Vatikana səfər etməsi və burada Roma papası ilə görüşməsi, aparılan müzakirələn, səsləndirilən fikirlər bir daha onu təsdiqləyir ki, Azərbaycandakı bütün dini icmalar həmrəydir və tolerantlıq şəraitində fəaliyyət göstərirlər.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur.***